# İlin yekunları müzakirə olunur

## İnzibati ərazi nümayəndəliklərində hesabat iclasları davam edir

### Kiçik Pirəli kəndi

Kiçik Pirəli kənd inzibati ərazi nümayəndəliyində 2018-ci ilin yekunlarına və 2019-cu ildə qarşıda duran vəzifələrə həsr olunmuş hesabat yığıncağı keçirilib.



Hesabat iclasında kənd ictimaiyyətinin nümayəndələri, ziyalılar, ağsaqqallar və Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Ətayə Osmanova iştirak ediblər.

Hesabat məruzəsi ilə çıxış edən İƏD üzrə nümayəndə Araz Ağayev iştirakçılara Kiçik Pirəlidə nümayəndəlik tərəfindən 2018-ci ildə görülmüş işlər barədə ətraflı məlumat verib. Məruzədə səslənib ki, kənddəki 215 ailə təsərrüfatında 867 nəfər sakin yaşayır. Onların 432 nəfəri fərdi təsərrüfatlarda çalışır. Əhali elektrik enerjisi, qaz yanacağı və içməli su ilə dayanıqlı qaydada təmin olunur.

Qeyd olunub ki, ərazidə kənd təsərrüfatının inkişafına diqqət və məsuliyyətlə yanaşılır. Barama istehsalı bərpa olunub və hesabat dövründə ərazidə 101 kq barama istehsal edilib. Bu gəlirli sahənin gələcəkdə inkişaf etdirilməsi məqsədilə 1400 ədəd tut tingi əkilib. Strateji kənd təsərrüfatı məhsulu hesab edilən fındıqçılığın genişləndirilməsi üçün 9 hektar sahədə fındıq bağı salınıb. Əhalinin əsas məşğuliyyət sahəsi olan taxılçılıq və heyvandarlıqda məhsuldarlıq ildən-ilə artır.



Hesabat məruzəsində qeyd olunub ki, xidmət sahələrinin qurumları kənd sakinlərinə nümunəvi xidmət göstərir. Yaranan bu və ya digər problemlərin həllinə rayon icra hakimiyyəti hərtərəfli dəstək göstərir.

Hesabat məruzəsindən sonra kənd sakini Məzahir İslamov, tam orta məktəbin direktoru Elsevər Mustafayev, Böyük Pirəli Bələdiyyəsinin sədri Ramin Hidayətov və başqaları çıxış ediblər.

İcra nümayəndəsinin fəaliyyətindən razılıqlarını bildirən sakinlər çıxışlarında xahiş ediblər ki, ərazidə olan elektrik dirəklərinin dəyişdirilməsinə, uşaq bağçasının açılmasına, kənd yolunun asfaltlaşdırılmasına aidiyyəti təşkilatlarla birlikdə diqqət yetirilsin.

Hesabat yığıncağında rayon icra hakimiyyəti başçısının müavini Ətayə Osmanova ölkədə və bölgədə əldə olunan yüksək nailiyyətlərdən, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin diqqəti və yaxından köməkliyi ilə Qəbələyə olan dövlət qayğısından ətraflı danışıb. Qeyd edib ki, Kiçik Pirəli inzibati ərazi dairəsi də yeni layihələrdən yararlanacaq, əhalinin məşğulluğu daha da artacaq. RİH başçısının müavini əmin olduğunu bildirib ki, kiçik pirəlilərin aqrar istehsalda töhfələri çoxalacaq və 2019-cu ildə qarşıda duran vəzifələrin icrası üçün onlar daha fəallıqla çalışacaqlar.

İclasda icra nümayəndəliyinin fəaliyyətinə kafi qiymət verilib.

**“Qəbələ”**

### Bum qəsəbəsi

Bum qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəlikdə 2018-ci ildə ərazidə görülmüş işlər və qarşıda duran vəzifələrə dair hesabat yığıncağı keçirilmişdir.

İclasa qəsəbə ictimaiyyətinin, ziyalıların, ağsaqqalların nümayənələri dəvət olunmuşdur. Rayon icra hakimiyyəti başçısının müavini Arif Allahverdiyev yığıncağın işində iştirak etmişdir.

Rayon icra hakimiyyəti başçısının Bum qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəsi Eynulla Məmmədov hesabat məruzəsində 2018-ci ildə qəsəbədə görülən işlər, həyata keçirilən tədbirlər barədə geniş məlumat vermişdir. Nümayəndə bildirmişdir ki, Bum qəsəbəsi rayonun ən iri yaşayış məntəqələrindən biridir. Qəsəbədəki 1329 təsərrüfatda 5500 nəfər əhali yaşayır. Əhali əsasən əkinçilik, meyvəçilik və heyvandarlıqla məşğuldur. Qəsəbənin təbii qazla təminatı bütünlüklə başa çatıb. Rayon mərkəzi ilə qəsəbəni müasir tələblərə cavab verən avtomobil yolu birləşdirir. Qəsəbənin mərkəzi abadlaşdırılıb. Əhali fasiləsiz olaraq elektrik enerjisi və təbii qazla təmin olunur. Qəsəbədə yerləşən 2 ümumtəhsil məktəbi, uşaq bağçası, həkim məntəqəsi numayəndəliyin daimi diqqət mərkəzindədir.



Qəsəbədə ixracyönümlü kənd təsərrüfatı məhsullarının istehsalını artırmaq üçün xeyli iş görülüb. Baramaçıdığın yem bazasını möhkəmlətmək üçün 2600 ədəd tut tingi əkilib, 83 hektar yeni fındıq bağı salınıb. Eynulla Məmmədov 2019-cu ildə qəsəbədə görüləcək işlər barədə də yığıncaq iştirakçılarına ətraflı məlumat vermişdir.

Bum qəsəbə tam orta məktəbinin direktoru Məlahət Dadaşova, həkim məntəqəsinin müdiri Müsalim Musayev, kənd sakinləri Hikmət Abdullayev, Qabil Cəfərov və başqaları çıxış edərək nümayəndəliyin 2018-ci ildəki fəaliyyəti barədə fikirlərini bildirməklə yanaşı, 2019-cu ildə qəsəbədə həlli vacib olan işlər haqqında da təkliflərini dilə gətirmişlər.



Qəsəbə tam orta məktəbinin təmirinə, qəsəbədə bir neçə yerdə avtobus dayanacağının quraşdırılmasına, küçə işıqlarının qaydaya salınmasına, qəsəbə daxili yolların təmirinə, əlavə subartezian quyusunun qazılmasına ehtiyac olduğu bildirilmişdir.

Rayon icra hakimiyyəti başçısının müavini Arif Allahverdiyev Bum qəsəbə inzibati ərazi nümayəndəliyinin fəaliyyətini geniş təhlil etmiş, 2019-cu ildə qəsəbədə görülməsi nəzərdə tutulan işlər barədə məlumat vermişdir.

Yığıncaq iştirakçıları qəsəbə inzibati ərazi nümayəndəliyinin fəaliyyətini kafi qiymətləndirmişlər.

**Qüdrət SƏMƏDOV, «Qəbələ»**

### Zalam kəndi

Yanvarın 22-də Zalam kənd inzibati ərazi nümayəndəliyi tərəfindən 2018-ci ildə görülmüş işlərə dair hesabat iclası keçirilmişdir.



Hesabat yığıncağında Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Ətayə Osmanova, kənd ictimaiyyətinin nümayəndələri, ziyalılar və ağsaqqallar iştirak etmişlər.

Hesabat məruzəsində kənd inzibati ərazi nümayəndəsi Soltan Ramazanov 2018-ci ilin Zalam kəndi üçün uğurlu olduğu qeyd olunmuşdur.

Belə ki, Qəbələ rayonunda həyata keçirilən quruculuq və abadlıq işləri Zalam sakinləri tərəfindən də böyük rəğbətlə qarşılanmışdır.



Məruzədə diqqətə çatdırılmışdır ki, ölkə başçısının rəhbərliyi ilə hazırlanmış müvafiq Dövlət Proqramlarının Qəbələdə uğurlu icrası və rayon İcra hakimiyyətinin daxili imkanlar hesabına gördüyü işlər nəticəsində ötən il kənddə əhalinin elektrik, su və qaz təchizatında heç bir problem olmamışdır.

Bildirilib ki, hesabat ilində kənd sakinlərini narahat edən problemlər icra nümayəndəliyində araşdırılmış, məsələnin həli ilə bağlı lazimi tədbirlər görülmüşdür.

Yığıncaqda rayon icra hakimiyyəti başçısının müavini Ətayə Osmanova çıxış edib. O, kənd sakinləri tərəfindən verilən sualları cavablandırmış, 2019-cu ildə Qəbələ rayonunda icra olunacaq irimiqyaslı layihələr, o cümlədən Zalam kəndində həyata keçiriləcək tədbirlər haqqında məlumat vermişdir.

Hesabat iclasında nümayəndəliyin 2018-ci ildə gördüyü işlər kənd sakinləri tərəfindən qənaətbəxş qiymətləndirilmişdir.

**"Qəbələ"**

**Fotolar İlkin Vəlizadənindir.**